# 2024-cü ilin oktyabr ayında gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərə ixtisas attestatının verilməsi üçün test imtahanı keçiriləcək

Dövlət Gömrük Komitəsi tərəfindən cari ilin oktyabr ayında gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərə ixtisas attestatının verilməsi üçün test imtahanının keçirilməsi nəzərdə tutulmuşdur.

**Test imtahanında iştirak etmək istəyən namizədlər aşağıdakı sahələr üzrə biliklərə malik olmalıdırlar.**

* gömrük qanunvericiliyi və gömrük işi sahəsində - gömrük prosedurları, mal və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilmə qaydaları və şərtləri, gömrük ödənişlərinin növləri, gömrük rəsmiləşdirilməsinin həyata keçirilməsi qaydaları, gömrük məqsədləri üçün xarici iqtisadi fəaliyyətin mal nomenklaturasına uyğun malların təsnifatı və bəyan edilməsi, malların gömrük dəyərinin və mənşə ölkəsinin müəyyən edilməsi qaydaları, gömrük orqanları tərəfindən gömrük və valyuta nəzarətinin həyata keçirilməsi qaydaları, gömrük statistikası, gömrük işi sahəsində qanunvericiliyin pozulmasına görə məsuliyyət, gömrük xidmətinin təşkili, gömrük orqanlarının vəzifəli şəxslərinin statusu, hüququ və vəzifələri barədə;

* xarici iqtisadi fəaliyyət və onun dövlət tənzimlənməsi sahəsində - xarici iqtisadi sövdələşmələrin bağlanılması və icra edilməsi, qiymətlər, xarici ticarətdə sığorta və nəqliyyat şərtləri, qadağa və məhdudiyyətlər, o cümlədən lisenziyalaşdırma və sertifikatlaşdırma barədə;

* iqtisadiyyat, vergi, maliyyə-kredit, ödəniş-hesab və valyuta münasibətləri, bank işi barədə;

* gömrük sahəsinə aid hissədə mülki hüquq, maliyyə hüququ, beynəlxalq və dövlət hüququ və cinayət hüququ barədə;

* Komitə tərəfindən verilmiş hüquqlar çərçivəsində mütəxəssisin fəaliyyəti üçün zəruri olan gömrük orqanlarının elektron məlumat sistemlərindən istifadə edilməsi barədə.

## Test imtahanı mərhələsi

Test imtahanı 100 (yüz) sualdan ibarətdir və imtahan müddəti 3 (üç) saat təşkil edir. Düzgün cavab 1 (bir) balla, yanlış cavab isə 0 (sıfır) balla qiymətləndirilir. Səhv cavabların sayı doğru cavabların sayına təsir etmir.

70 (yetmiş) və daha çox bal toplamış şəxs imtahandan uğurla keçmiş hesab olunur.

Test imtahanının suallarını əhatə edən "Ədəbiyyat siyahısı" Komitənin rəsmi internet səhifəsinin "Sahibkarlar üçün" bölməsinin "Gömrük təmsilçiliyi" alt bölməsində yerləşdirilmişdir.

## Test imtahanında iştirak etmək üçün tələb olunan sənədlər

* hüquqi şəxsin vəsatəti;
* gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssis kimi fəaliyyət göstərməsi üçün hüquqi şəxsin ştatında olan əməkdaşın ərizəsi;
* həmin əməkdaşın şəxsiyyət vəsiqəsinin surəti;
* hüquqi şəxs ilə onun ştatında olan əməkdaş arasında bağlanılmış əmək müqaviləsinin və işə qəbulu barədə əmrin surəti;
* əməkdaşın müvafiq təhsili barədə dövlət sənədinin təsdiq edilmiş surəti;
* əməkdaşın hansı fəaliyyət növü ilə məşğul olmasını təsdiq edən sənədin surəti.

**QEYD: Sənəd qəbulunun, imtahanın keçiriləcəyi vaxt və yer barədə məlumatlar Komitənin rəsmi internet səhifəsində yerləşdiriləcək.**